# İNFARKTDAN SONRAKI KARDIOSKLEROZ OLAN XƏSTƏLƏRDƏ ARTERIAL HIPERTENZIYANIN LIPID METABOLİZMINƏ TƏSIRI

**Rəhmanov Z.K.**

**Hacıyev A.B.**

**Məmmədova G.İ.**

C.Abdullayev adına ET kardiologiya institutu

Ürək-damar sistemi xəstəlikləri, xüsusən də ürəyin işemik xəstəliyi, bütün dünyada böyüklər arasında ölümün əsas səbəbləri olaraq qalmaqdadır. Digər müşaiyət olunan xəstəliklər arasında arterial hipertenziya (AH) bu qrup xəstələrdə ən çox rast gəlinən xəstəliklər sırasındadır.

İşin məqsədi postinfarkt kardioskleroz (PİKS) olan xəstələrdə arterial hipertenziyanın lipid metabolizm və aterogenlik göstəricilərinə təsirinin öyrənilməsi olub.

Müayinəyə cəlb olunan 487 infarktdan sonra kardioskleroz (İSKS) xəstə (orta yaş 60,4 ± 9,6 il) 2 qrupa bölünüb: 1-ci qrupa 177 PİKS və arterial hipertenziya olmayan, 2-ci qrupa isə 310 PİKS və AH olan xəstə daxil edilib. Başqa yanaşı xəstəlikləri olan pasiyentlər tədqiqata daxıl edilməyib. Ümumi klinik və anamnestik əlamətləri öyrənməklə yanaşı, bütün xəstələrə müxtəlif laborator və instrumental müayinə üsulları tətbiq olunmuşdur. Qanin lipid spektri Becman Coulter AU480 analizatorunda aparılıb və aşağıdakı göstəricilərin səviyyəsi müəyyən edilib: ümumi xolesterin (XS), yuxarı sıxlıqli lipoproteidlər (HDL), aşağı sıxlıqli lipoproteidlər (LDL), çox aşağı sıxlıqli lipoproteidlər (VLDL), triqliseridlər (TQ). Bundan başqa, [$loq_{10}$ (TQ/HDL] düsturuna əsasən plazmanın aterogenlik indeksi (PAİ) hesablanmışdır. Nəticələrin statistik analizi SPSS.21 proqram paketindən istifadə etməklə həyata keçirilmişdir. Alınan nəticələrin statistik analizi Qauss paylanması qanununa əsasən Styudentin T- və ya Mann-Uitninin U-kriteriyalarına əsasən aparılmışdır. Bütün hallarda $p<0,05$ olarkən fərq dürüst hesab olunub.

Alınan nəticələrin təhlili göstərib ki, PİKS olan xəstələrdə AH dislipidemiyanın yaranmasına səbəb olaraq, XS, LDL, VLDL və TQ göstəricilərini, müvafiq olaraq, 6,3%, ($p<0,05$), 4,7%, ($p>0,05$), 22,0%, ($p<0,05$), və 17,2%, ($p<0,05$), artırır. Bununla yanaşı, piy mübadiləsi pozğunluğunun dərəcəsini və aterosklerozun inkişaf riskini əks etdirən PAİ qruplar arası statistik fərqlənməsə belə, bu fərq kifayət qədər böyük olaraq 39,5%, ($p>0,05$), təşkil etmişdir.

Beləliklə, aparılan tədqiqatın nəticələri PİKS olan xəstələrdə AH-ın dislipidemiyanın yaranmasını və aterosklerozun riskinin artmasına səbəb olan faktorlardan biri olmasını təsdik edir. Bu istiqamətdə tədqiqat davam edir və alınan yeni nəticələr barəsində gələcəkdə əlavə məlumat veriləcək.